# AKADEMIK
# ƏNVƏR PİRVERDİ OĞLU NƏHMƏDOV – 60



Akademik Ənvər Pirverdi oğlu Nəhmədov 24 avqust 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1981-ci ildə Azərbaycan Dövlət Universitetini "Nəzəri fizika" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirdikdən sonra AMEA Fizika İnstitutunun "Yarımkeçiricilər" laboratoriyasında Firidun Həşimzadənin rəhbərliyi ilə elmi işçi vəzifəsində çalışmağa başlamışdır. 1982-ci ildə SSRİ Elmlər Akademiyasının A.F.İoffe adına Leninqrad Fizika-Texnika İnstitutunda iki il işləmiş və 1984-cü ildə həmin ınstitutda aspiranturaya qəbul olunmuşdur. Aspirantura dövründə "Kondensə olunmuş hallar fizikasının nəzəriyyəsi" üzrə elmi fəaliyyətə başlamış və 1987-ci ildə namizədlik, 2012-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir.

Ə.P.Nəhmədov 1992-ci ildə Türkiyənin İstanbul şəhərinin Marmara Universitetinə proffessor kimi dəvət olunmuşdur. 1993-cü ildən 1998-ci ilədək o, İstanbul Texniki Universitetində proffessor vəzifəsində çalışmış, 1999-cu ildə Almaniyanın Vürzburq Universitetinə prof. R. Opperman tərəfindən dəvət olunmuş və 2015-i ilədək Almaniyada fərqli Universitetlərdə, həmçinin Maks Plank İnstitutunda fəaliyyət göstərmişdir.

Akademik Ə.P.Nəhmədov 2015-ci ildən AMEA Fizika İnstitutunda "Kondensə olunmuş hallar və kvant fazaları" labaratoriyasına rəhbərlik edir. Hal-hazırda ifrat keçiricilik, Anderson lokalizasiyası, mezoskopik fluktasiyalar, abenisiyu hesablamaları, spintronika və topoloji fazalar fizikası sahələrində elmi fəaliyyət göstərməkdədir. Onun xarici impakt faktorlu nüfuzlu jurnallarda 85-dən çox elmi məqaləsi və 5 elmi monoqrafiyası dərc olunmuşdur.